## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə ABŞ Heyvan və Bitki Sağlamlığının Yoxlanılması Xidməti arasında baytarlıq və fitosanitar nəzarətinə aid olan bir sıra məhsulların Azərbaycandan ABŞ-a ixracının təmin edilməsi məqsədilə işlər həyata keçirilir.
- 2026-cı ilin 20 aprel tarixində Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin inzibati binasında Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) üzvləri ilə görüş keçirilmişdir. Görüşdə ölkədə biznes mühitinin davamlı inkişafını təmin etmək məqsədilə həyata keçirilən dövlət dəstəyi tədbirləri ətraflı müzakirə olunmuşdur. Görüş zamanı iki qurum arasında sahibkarlarla daha sıx və effektiv kommunikasiyanın təmin olunması məqsədilə birgə əməkdaşlıq mexanizmlərinin yaradılması ilə bağlı razılıq əldə olunub.
- ABŞ-ın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının "Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 1 avqust tarixində ABŞ-ın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Nəticədə, ABŞ-ın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan ABŞ-da qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- 2025-ci il 20 may tarixində Agentlik və APHIS arasında növbəti virtual görüş keçirilmiş və görüşdə ABŞ-a Azərbaycandan ixracı üçün mümkün qida məhsullarının siyahısı, fındıq və alma kimi məhsulların ixracı üçün müvafiq prosedurların müəyyənləşdirilməsi kimi məsələlər müzakirə olunmuşdur.
- 2025-ci il 7 aprel tarixində Agentlik və APHIS arasında virtual görüş keçirilmiş və görüşdə ikitərəfli əməkdaşlığın gücləndirilməsi və ABŞ-a yumurta ixracı ilə bağlı məsələlər müzakirə edilmişdir.
- 2019-cu il 15 aprel tarixində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun nümayəndə heyəti ABŞ-da işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində ABŞ Qida və Dərman Administrasiyası, ABŞ Kənd Təsərrüfatı Departamentinin rəhbərliyi, eləcə də Vaşinqton və onun ətrafında yerləşən qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlıq istiqamətlərində görüşlər keçirilmişdir.
- 2018-ci il 17 dekabr tarixində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli ilə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Gillin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş baş tutmuşdur. Görüşdə Qida Təhlükəsizliyi Agentliyinin sədri nümayəndə heyətinə Agentliyin fəaliyyət istiqamətləri barədə

məlumat vermiş və tərəflər Bioloji Təhlükənin Azaldılması Proqramı üzrə əməkdaşlıq perspektivlərini müzakirə etmişlər.